**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**SEVİNC ZÖHRAB qızı CƏFƏROVA**

# AZƏRBAYCAN BƏSTƏKARLARININ XOR ƏSƏRLƏRİNDƏ XALQ MUSİQİSİNDƏN İSTİFADƏ MƏSƏLƏLƏRİ

**6213.01 – Musiqi sənəti**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2017**

*Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin*
*İncəsənət fakültəsində yerinə yetirilmişdir.*

**Elmi rəhbər:** **Cəmilə İsmayıl Həsənova**
sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **İradə Tofiq qızı Köçərli**
sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Ellada Əlihüseyn qızı Hüseynova**
Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **Gəncə Dövlət Universiteti**
**"Musiqi fənnləri" kafedrası.**

Müdafiə ____ noyabr 2017-ci ildə saat ______ Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat ____ oktyabr 2017-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru,
dosent **Məmmədova H.V.**

## DİSSERTASİYANIN ÜMUMİ XASİYYƏTNAMƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan musiqi mədəniyyətinin təkamülü bilavasitə bəstəkar yaradıcılığının xalq musiqisi ilə qarşılıqlı əlaqəsindən qidalanır. Azərbaycan bəstəkar yaradıcılığının formalaşmasında xalq musiqisinin böyük rolu olmuşdur. Xüsusilə bir sıra musiqi sahələrinin, o cümlədən, xor musiqisinin formalaşmasının başlanğıcı xalq mahnılarının xor üçün işlənilməsi ilə qoyulmuşdur. Buna görə də xalq musiqisindən bəstəkar yaradıcılığında istifadə probleminin öyrənilməsi xor musiqisinin araşdırılması timsalında aktual məsələ kimi qarşıya qoyulur.

Müasir dövrdə bəstəkarların xalq musiqisindən yaradıcı surətdə istifadə edərək onu yeni məna çalarları ilə qavraması, folklorla bəstəkar yaradıcılığının qarşılıqlı əlaqəsinin dinamik təşəkkülü və intensiv inkişaf prosesi tədqiqatçıların diqqət mərkəzində duran ən vacib və aktual məsələlərdən biridir.

Tədqiq etdiyimiz problem Azərbaycan professional musiqi mədəniyyəti tarixində ifadə vasitələrinin təkamülü məsələləri ilə əlaqədardır. Bunun da əsas mahiyyəti Azərbaycan xalq musiqi yaradıcılığına arxalanaraq, xor musiqisi sahəsində milli üslub xüsusiyyətlərinin araşdırılmasından ibarətdir. Bir tərəfdən, bəstəkar və xalq yaradıcılığının qarşılıqlı təsiri probleminin öyrənilməsi xalq musiqisinin müəyyən tərəflərini açıqlayır, onun əsas qanunauyğunluqlarını dərk etməyə imkan verir. Digər tərəfdən, bəstəkarların yaradıcılığında xalq musiqisi ilə bağlı qanunauyğunluqların üzə çıxarılması milli musiqi üslubunun əsas xüsusiyyətlərinin öyrənilməsinə yol açır.

Biz bilavasitə bəstəkarların xor yaradıcılığında musiqi folklorundan - xalq mahnılarından və xalq rəqslərindən istifadə yollarını araşdırırıq. Tədqiqatın istiqamətini müəyyənləşdirmək üçün ardıcıl olaraq xalq musiqisi nümunələrinin bəstəkarlar tərəfindən nota yazılması, xor üçün işlənilməsi məsələləri öyrənilmişdir. Xorun iştirakı ilə bağlı olan müxtəlif janrlı bəstəkar əsərlərinin – opera, musiqili komediya, kantata-oratoriyaların tərkibində və ya müstəqil xor əsərlərində xalq musiqisindən istifadə yolları öyrənilmişdir. Bəstəkarların xor üçün yazılmış əsərlərində xalq musiqisindən müxtəlif yollarla - sitat şəklində və ya ayrı-ayrı melodik-intonasiya və inkişaf formaları çərçivəsində istifadə edilməsi məsələləri araşdırılmışdır.

**Mövzunun işlənmə dərəcəsi.** Azərbaycan musiqişünaslığında müraciət etdiyimiz mövzunun müxtəlif cəhətlərdən araşdırılmasına rast gəlirik. Bəstəkar yaradıcılığında xalq musiqisindən istifadə məsələləri bir sıra mo-

noqrafiyalarda, məqalələrdə, metodik vəsaitlərdə və dissertasiya işlərində işıqlandırılmışdır.

Xor musiqisinin inkişafında böyük rolu olmuş dahi bəstəkar və musiqişünas Üzeyir Hacıbəylinin yaradıcılığına xüsusi diqqət yetirmişik və bu istiqamətdə yaranmış tədqiqatlara əsaslanmışıq. Xüsusi olaraq, Elmira Abasovanın[1] tədqiqatlarında Üzeyir Hacıbəylinin yaradıcılıq irsi əhatəli surətdə araşdırılaraq, bəstəkarın musiqi üslubunun xüsusiyyətləri, əsərlərinin bədii məziyyətləri üzə çıxarılmışdır. Ü.Hacıbəylinin yaradıcılığında öz əksini tapmış müxtəlif janrlı əsərlər – mahnılar, xor əsərləri, instrumental əsərlər və s. İmruz Əfəndiyevanın[2], Leyla Məmmədovanın[3], Xumar Bayramovanın[4] və başqalarının tədqiqatlarında araşdırılmışdır.

Bununla yanaşı, musiqişünaslıq tədqiqatlarında bilavasitə Azərbaycan xalq mahnılarının araşdırılması da mühüm yer tutur. Üzeyir Hacıbəylinin[5], Məmmədsaleh İsmayılovun[6], Əhməd İsazadənin[7], Rauf İsmayılzadənin[8],

---

[1] Абасова Э.А. Узеир Гаджибеков. Путь жизни и творчества. Б.: Элм, 1985, 200с.; Абасова Э.А. Оперы и музыкальные комедии Узеира Гаджибекова. Б.: 1961,

[2] Эфендиева И.М. Национальные черты песенного творчества Узеира Гаджибекова. // Узеир Гаджибеков и народная музыка. Б.: 1991. с. 95-101.; Эфэндиева И.М. Азербайджанская советская песня. Б.: 1981.

[3] Məmmədova L.M. Üzeyir Hacıbəyov və Azərbaycanda xor ifaçılığı sənəti (bəzi sənədlərin izi ilə). // «Musiqi dünyası» jurnalı, № 3-4 (25), 2005. s. 98-103.; Məmmədova L.M. XIX əsrin sonu - XX əsrin əvvəlində Azərbaycan xor ifaçılığı sənətinin tarixindən. // «Musiqi dünyası» jurnalı, № 1-2 (27), 2006. s. 69-73.; Мамедова Л.М. Хоровая культура Азербайджана. Б.: 2010.

[4] Bayramova X.Z. Ü.Hacıbəylinin mahnılarının və xor əsərlərinin yaranma tarixi və janr xüsusiyyətlərinə dair. //«Musiqi dünyası» jurnalı, № 1-2 (43), 2010, s.133-138.; Bayramova X.Z. Üzeyir Hacıbəylinin xor əsərlərində musiqi dilinin xüsusiyyətləri. Sənət.nam...diss... Avtoreferatı. B., 2011.

[5] Hacıbəyli Ü.Ə. Azərbaycan türklərinin musiqisi haqqında. (Təqdim edəni, ön söz və lüğətin müəllifi F.Əliyeva). B.: Adiloğlu, 2005. 74 s.; Hacıbəyov Ü.Ə. Əsərləri. II cild. (Cildin redaktoru M.İbrahimov; tərtibat, kommentariya və lüğət Q.Qasımovundur). B.: Azərb.EA nəşri, 1965. Hacıbəyov Ü.Ə. Seçilmiş əsərləri. B.: Yazıçı, 1985.

[6] İsmayılov M.C. Azərbaycan xalq musiqisinin janrları. B., 1960. Yenidən işlənmiş və tamamlanmış nəşri. B., İşıq, 1984. İsmayılov M.C. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər. Bakı, Elm, 1991.

[7] İsazadə Ə.İ. XIX əsrdə Azərbaycan musiqi folkloru rus folklorşünaslarının əsərlərində. //«Musiqi dünyası» jurnalı, № 2 (3), 2000, s.12-14.; İsazadə Ə.İ. Musiqi folkloru. //Müasir Azərbaycan Memarlığı və İncəsənəti. Bakı, Elm, 1992.; İsazadə Ə.İ. Azərbaycan musiqi folklorunun öyrənilməsi tarixindən. // Azərbaycan xalq musiqisi (oçerklər). Bakı, Elm, 1981. s.5-19.

[8] İsmayılzadə R. Azərbaycan xalq mahnıları. // Azərbaycan xalq musiqisi (oçerklər). Bakı, Elm, 1981. s.52-85.

Tahirə Kərimovanın[9], Ceyran Mahmudovanın[10], Əfruzə Məmmədovanın[11], Fəttah Xalıqzadənin[12] və başqalarının tədqiqat əsərlərində xalq mahnılarının janr xüsusiyyətləri, nəzəri əsasları müxtəlif aspektlərdən araşdırılmışdır. Həmçinin, Xanlar Məlikovun[13], Ədilə Yusifovanın[14], Həsən Adıgözəlzadənin[15], Cəmilə Həsənovanın[16] tədqiqatlarında bəstəkar yaradıcılığında xalq musiqisindən istifadə probleminin müxtəlif cəhətlərinə toxunulmuşdur.

Bütün bunlara əsaslanaraq, deməliyik ki, Üzeyir Hacıbəylinin və XX əsrin I yarısında yaşayıb-yaratmış bəstəkarların yaradıcılıq fəaliyyəti musiqişünaslıqda müxtəlif aspektlərdə öyrənilmişdir. Bilavasitə bu dövrdə meydana gəlmiş operalar və musiqili komediyalara, vokal-instrumental əsərlərə bir sıra elmi işlər həsr edilmişdir. Lakin Azərbaycan bəstəkarlarının yaradıcılığının müxtəlif sahələrində - musiqili-səhnə əsərlərində, vokal və instrumental yaradıcılığında xalq musiqisindən istifadə məsələləri xüsusi olaraq tədqiqat obyektinə çevrilməmişdir. Bu da bizim bu mövzuya müraciətimizi şərtləndirmiş və bu sahədə tədqiqatlar aparmağımıza təkan vermişdir.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azərbaycan xalq mahnılarının və bəstəkarların xor əsərlərinin tədqiqata cəlb

---

[9] Керимова Т. Опыт исследования древнейших пластов азербайджанского фольклора. Ученые записки Аз.Гос. Консерватории им. У.Гаджибекова. Баку, 1977, № 1, с.3-15.

[10] Mahmudova C.E. Azərbaycan bəstəkarlarının mahnılarında bayatı şeir formasının təzahürü. // "Azərbaycan milli musiqisinin tədqiqi problemləri". Elmi məqalələr toplusu. V buraxılış. B.: 2004.; Mahmudova C.E. Azərbaycan bəstəkarlarının mahnılarında poeziya ilə musiqi. B.: 2009.

[11] Мамедова А.З. Музыкальные миниатюры Азербайджана. Народные песни – основные особенности строения. Баку, Элм, 1990/

[12] Xalıqzadə F.X. Azərbaycan xalq musiqisində «bəhrsiz» ritm anlayışına dair. /Azərbaycan milli musiqisinin tədqiqi problemləri. I buraxılış. Bakı, 1992, s.54-59.; Xalıqzadə F.X. Layla və oxşamaların ritmikasına dair. /Azərbaycan milli musiqisinin tədqiqi problemləri. II buraxılış. Bakı, 1996, s.8-13.; Xalıqzadə F.X. Azərbaycan xalq musiqisinin toplanması və yazıya alınmasında Niyazinin rolu. //«Musiqi dünyası» jurnalı, № 3-4 (13), 2002, s.173-176.; Xalıqzadə F.X. Azərbaycanın ənənəvi xalq musiqisi atlası. //«Musiqi dünyası» jurnalı, № 3-4 (17), 2003, s.152-159.

[13] Меликов Х.Г. «Аршин мал алан» Узеира Гаджибекова. Б.: 1955.

[14] Yusifova A.N. Azərbaycan xalq melodiyalarının işlənməsi və aranjimanı. B.: 2004.; Yusifova A.N. Azərbaycan bəstəkarlarının işləmələri. B.: 2009.

[15] Adıgözəlzadə H. Üzeyir Hacıbəyov və onun müasirlərinin fəaliyyətinin etnomusiqişünaslıq aspekti. //«Musiqi dünyası» jurnalı, № 1-2, 2004, s.113-119.; Adıgözəlzadə H. Üzeyir Hacıbəyov və onun müasirlərinin fəaliyyətinin etnomusiqişünaslıq aspekti. //«Musiqi dünyası» jurnalı, № 3-4, 2004, s.178-186.

[16] Həsənova C.İ. Azərbaycan bəstəkarlarının yaradıcılığında milli ladların təzahürü. Dərs vəsaiti. B.: Mars-print, 2004. Həsənova C.İ. Üzeyir Hacıbəylinin yaradıcılığında milli musiqinin nəzəri əsasları. B.: Mars-print, 2009.

olunmasından və onların qarşılıqlı əlaqələrinin, bəstəkar yaradıcılığında xalq mahnısından istifadə yollarının öyrənilməsindən ibarətdir. Bu məqsəddən irəli gələrək, dissertasiya işində aşağıdakı **vəzifələr** irəli sürülür və onların həlli qarşıya qoyulur:

1) Azərbaycan xalq mahnılarının toplanması və notlaşdırılmasının əhəmiyyətinin öyrənilməsi;

2) Musiqişünaslıq əsərlərində xalq mahnılarının janr rəngarəngliyinin tədqiqi;

3) bəstəkarların xor musiqisi sahəsində xalq musiqisindən istifadə yollarının araşdırılması, bu baxımdan bəstəkar əsərlərinin təhlili;

4) bəstəkarların özünəməxsus yaradıcılıq xüsusiyyətlərinin araşdırılması və xalq musiqisinin onlara əhəmiyyətli təsirinin üzə çıxarılmasından ibarətdir.

**Dissertasiyanın elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycan musiqişünaslığında ilk dəfə olaraq, Azərbaycan bəstəkarlarının xor yaradıcılığında xalq musiqisindən istifadə məsələləri tədqiq edilmiş, bəstəkar əsərlərinin və xalq musiqisinin qarşılıqlı təsiri məsələləri, bununla bağlı üslub xüsusiyyətləri açıqlanmışdır:

– azərbaycan xalq mahnı və rəqslərinin bəstəkarlar tərəfindən xor üçün işləmələri, opera, musiqili komediya, kantata kimi müxtəlif janrlı bəstəkar əsərlərində xor partiyasında, həmçinin, orijinal xor əsərlərində xalq musiqisindən istifadə nümunələri tədqiqata cəlb olunmuşdur;

– bəstəkar əsərlərinin janr xüsusiyyətləri, musiqi üslubu, xalq musiqisinə yaradıcı münasibəti araşdırılmışdır;

– azərbaycan xalq musiqisindən istifadə yolları, bəstəkarların musiqi dilinə təsiri, musiqi üslubunun formalaşmasında rolu, meydana gələn yeni cəhətlər üzə çıxarılmışdır.

**Dissertasiyanın metodu və metodoloji əsası.** Dissertasiyanın metodunu musiqi nəzəriyyəsi ilə bağlı tədqiqatlar, musiqişünas alimlərin nəzəri müddəaları təşkil edir. Tədqiqat prosesində nəzəri musiqişünaslıqda qəbul olunmuş təhlil metodlarından, o cümlədən, tarixi-nəzəri və müqayisəli təhlil metod başlıca yer tutmuşdur.

Üzeyir Hacıbəylinin, Məmmədsaleh İsmayılovun, Elmira Abasovanın, Ramiz Zöhrabovun, İmruz Əfəndiyevanın, Gülnaz Abdullazadə, Solmaz Qasımovanın, Zemfira Qafarovanın, Gülzar Mahmudovanın, Leyla Məmmədovanın və başqalarının Azərbaycan xalq musiqisinə və bəstəkar yaradıcılığına həsr olunmuş tədqiqatları dissertasiyanın metodoloji bazasına çev-

rilmiş, işdə bütün bu musiqişünasların elmi müddəalarından bir mənbə kimi istifadə olunmuşdur.

Azərbaycan musiqişünasları ilə yanaşı, xarici musiqişünas alimlərin – V.Belyayevin, V.Vinoqradovun, İ.Zemtsovskinin və başqalarının bəstəkar yaradıcılığı və xalq musiqi əlaqələrinin araşdırılması ilə bağlı elmi tədqiqatlarından istifadə olunmuşdur.

Bütün bunlar Azərbaycan bəstəkarlarının xor yaradıcılığında xalq musiqisindən istifadə yollarını araşdırmağa və musiqi üslubunun formalaşmasında əhəmiyyətini üzə çıxarmağa imkan vermişdir.

**Tədqiqatın obyektini** Azərbaycan bəstəkarlarının xor yaradıcılığında xalq musiqisinin əsas xüsusiyyətlərinin bəstəkarların musiqi üslubuna təsiri məsələlərinin araşdırılması təşkil edir.

**Tədqiqatın predmetini** Azərbaycan bəstəkarlarının xor əsərlərində xalq musiqisindən istifadə yollarının öyrənilməsi, bəstəkarların xalq mənbələrinə münasibətinin üzə çıxarılması təşkil edir.

**Tədqiqatın materialını** Azərbaycan bəstəkarlarının xor əsərləri - opera, musiqili komediya, kantata kimi müxtəlif janrlı bəstəkar əsərlərindəki xorlar, həmçinin, orijinal xor əsərləri, xalq mahnı və rəqslərinin not yazıları və xor üçün işləmələri təşkil edir.

**Dissertasiyanın elmi-təcrübi əhəmiyyəti.** Tədqiqatın materiallarından və əldə edilmiş elmi müddəalardan gələcək elmi işlərdə, mühazirələrdə, seminarlarda, xüsusilə ali və orta ixtisas musiqi məktəblərinin nəzəri və praktiki kurslarında – "Azərbaycan musiqi tarixi", "Azərbaycan xalq musiqi yaradıcılığı", "Musiqi əsərlərinin təhlili" və s. musiqi nəzəriyyəsi ilə bağlı fənlərin tədrisində istifadə edilə bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Naxçıvan Dövlət Universitetinin "İncəsənət" fakultəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəaları müəllifin elmi konfranslarındakı çıxışlarında, yerli və xarici elmi məcuələrdə çap olunmuş bir sıra məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, iki fəsil, dörd yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

**Dissertasiyanın I fəsli "Azərbaycanda xor musiqisinin inkişafında xalq musiqi yaradıcılığının əhəmiyyətli rolu" adlanır və iki yarımfəsildən ibarətdir.**

**I fəslin birinci yarımfəslində - 1.1. "Azərbaycan xalq musiqisinin əsas xüsusiyyətləri və bəstəkar yaradıcılığında tətbiqi məsələləri" irəli sürülür.**

Azərbaycan xalq musiqi irsi qədim tarixə və zəngin ənənələrə malik olub, musiqi mədəniyyətinin formalaşmasında mühüm rol oynayır. Xalq musiqi irsinin toplanması, yazıya alınması bəstəkar yaradıcılığının inkişafında, müxtəlif janrlı əsərlərin meydana gəlməsində böyük rol oynayır. Bu baxımdan biz xalq musiqi nümunələrinin toplanması, notlaşdırılması, çap olunması məsələlərinə, həmçinin onların əsasında musiqişünaslıq tədqiqatlarının aparılması, bəstəkar əsərlərinin yaranması və musiqi tədrisində tətbiqi kimi məsələlərə diqqət yetirmişik.

Azərbaycan bəstəkar yaradıcılığının təməlini qoymuş Üzeyir Hacıbəyli öz əsərlərində xalq musiqisindən bəhrələnmiş, xalq musiqisi nümunələrinin müxtəlif sahələrdə tərkiblər üçün işləmələrini və orijinal əsərlərini yaratmışdır.

Ü.Hacıbəylinin 1908-1915-ci illər ərzində yaratdığı operalarda və musiqili komediyalarda xorlar əsasən birsəsli və ikisəsli idi. Bu da xalq musiqi ifaçılığı ənənələri ilə bağlı idi. Sonrakı illərdə bu əsərlərdə xor partiyalarının redaktə olunmasını və dörd səsli xorlar şəklində tərtib olunmasını qeyd etməliyik.

Ü.Hacıbəyli milli musiqisinin inkişafında xorun əhəmiyyətini qiymətləndirərək, Azərbaycan musiqisində çoxsəsli xorun təşkili uğrunda fəal çalışmışdır. Azərbaycanda peşəkar xor kollektivlərinin yaranması 1920-1930-cu illərə aiddir. Bu dövrdə təşkil olunmuş Azərbaycan Dövlət Konservatoriyasının bütün ixtisaslar üzrə tədris planında, eləcə də musiqi texnikumlarında və musiqi məktəblərində xorla oxuma fənni nəzərdə tutulmuşdu.

Ü.Hacıbəyli xorun repertuarını yaratmaq məsələsində xalq mahnılarından istifadə olunmasına böyük əhəmiyyət verirdi. Azərbaycan Dövlət Xorunun ilk proqramına Üzeyir Hacıbəylinin əsərləri – əsasən "Aman nənə", "Ay bəri bax", "Lolo", "Gedək gəzək bağçada" və s. xalq mahnılarının xor üçün işləmələri, eləcə də operalarından xorlar daxil edilmişdi. Daha sonralar isə xorun repertuarı Azərbaycan bəstəkarlarının xor əsərləri ilə zənginləşdi.

Ümumiyyətlə, Azərbaycanda xor ifaçılığı mədəniyyətinin yaranması musiqi təhsilinin və bəstəkar yaradıcılığının inkişafı ilə paralel olaraq get-

mişdir. Peşəkar xor kollektivlərinin yaranması bəstəkar yaradıcılığında xor üçün müxtəlif həcmli və rəngarəng janrlı əsərlərin meydana gəlməsinə təkan vermişdir.

**Dissertasiyanın I fəslinin ikinci yarımfəsli - 1.2. "Bəstəkar yaradıcılığında xalq musiqi nümunələrinin xor üçün işləmələri"nin araşdırılmasına həsr olunmuşdur.**

Azərbaycan bəstəkarlarının yaradıcılığında xalq mahnılarının xor üçün işləmələri mühüm yer tutur. Bu sahənin əsasını qoyan Ü.Hacıbəylinin ənənələri ondan sonra gələn bəstəkarların yaradıcılığında da öz əksini tapmış və davam etdirilmişdir. Bəstəkarlar musiqi ənənələrinə, ifaçılıq təcrübəsinə, bilavasitə formaquruculuğu və musiqi dilinin qanun-qaydalarına əsaslanaraq, onları Azərbaycan musiqisinin özəllikləri ilə qovuşdurmuş, milli musiqinin qanunauyğunluqlarını xor yazısına tətbiq etməyə nail olmuşlar.

Azərbaycan bəstəkarlarının yaradıcılığında xalq mahnı işləmələrinin həm instrumental müşayiətli, həm də müşayiətsiz xor üçün yazılan əsərlərdə bəstəkarlar qarşısında fərqli vəzifələr dururdu. Artıq burada bəstəkarlar xor fakturasında homofon-harmonik və imitasiyalı-polifonik quruluşun elementlərini tətbiq edirlər. Hər bir xalq mahnısı xor üçün işlənərkən onlardan çox sərbəst və yaradıcı surətdə istifadə edilir ki, bu da folklora bəstəkar münasibətini müəyyənləşdirir.

Məsələn, Soltan Hacıbəyovun "Gül baxçalar", "Bahar nəğməsi", Fikrət Əmirovun "Gözəlim sənsən", Cahangir Cahangirovun "Əzmə tağları", Ramiz Mustafayevin "Nar-nar", Nazim Əliverdibəyovun "Almanı atdım xarala", "Səndən mənə yar olmaz" xalq mahnılarının a capella xor üçün işləmələrində Üzeyir Hacıbəylinin bu sahədə təməlini qoyduğu ənənələr bəstəkarlar tərəfindən özünəməxsus tərzdə davam etdirilir.

Biz bir neçə xor üçün xalq mahnı işləmələrinin timsalında xor yazı üsullarını xarakterizə etməyə çalışmışıq.

"Səndən mənə yar olmaz" mahnısının iki variantı təhlil edilib: N.Əliverdibəyovun və M.Əliyevanın xor üçün işləməsində. Bunlardan birincisi instrumental müşayiətli xor, ikincisi a kapella xoru üçün işlənilmişdir. Həmçinin, "Səndən mənə yar olmaz" mahnısı bir səsli şəkildə S.Rüstəmov tərəfindən 1967-ci ildə nota yazılıb "Azərbaycan xalq mahnıları" məcmuəsində çap olunmuşdur.

Xalq mahnılarının xor üçün işləmə variantlarının araşdırılması nəticəsində qeyd etməliyik ki, bunlar eyni məqam-tonallığa əsaslanır. Melodiyanın hətəkət xətti eynidir. Burada xalq mahnı işləməsinin məqam-harmonik əsası və metro-ritmik quruluşu ilə bağlı xüsusiyyətlər özünü qabarıq göstə-

rir və əsər boyu saxlanılır, müxtəlif fiqurasiyalı variantlarda təqdim olunur. Müşayiətin metro-ritmik quruluşu xalq mahnı işləməsinə lirik rəqsvari xarakter aşılayır. Fiqurasiyalı gedişlərdə alterasiyalı səslər məqam-harmonik dilinə rəngarənglik aşılayır. Eyni zamanda, xor ilə müşayiətin ahəngdar uzlaşması diqqətə layiqdir. Eyni xalq melodiyasının müxtəlif xor işləməsində melodiyanın quruluşu, məqam-tonallığı saxlanılmaqla xor partiturasının işlənilməsində müxtəliflik üzə çıxır. Hər iki xor işləməsində bütün ifadə vasitələri melodiyanın xarakterinə uyğun müşayiət fonunda səsləndirilməsinə yönəldilmişdir.

"Aman ovçu" xalq mahnısı Azərbaycanda çox sevilən mahnılardan biri olub, həm xalq arasında, həm xanəndə yaradıcılığında, həm də vokal ifaçılıqda geniş yayılmışdır. Azərbaycanda bu mahnının not yazısı ilk dəfə S.Rüstəmovun 1967-ci ildə nəşr olunan məcmuəsində işıq üzü görmüşdür. Xalq mahnısının təhlilə cəlb etdiyimiz xor üçün işləmələri Ramiz Mustafayevə və Mehin Əliyevaya aiddir. Hər iki xor işləməsi "fa-diyez" tonikalı bayatı-şiraz məqamına əsaslanır. Birinci xor işləməsi solist xor və instrumental müşayiət üçün, ikincisi a kapella xoru üçün nəzərdə tutulmuşdur.

"Aman ovçu" xalq mahnısının a kapella xor işləməsi melodik quruluşuna görə birinci variantla eynidir. Xor partiyalarında bayatı-şiraz məqamının dayaq pillələrinə istinad olunması, melodik hərəkət formaları hər iki variantda əsasən eynidir. Xor ikisəsli tərtib olunmuşdur. Birinci səs əsas melodiyaya əsaslanır. İkinci səs isə imitasiyalı səslənmə təşkil edir. Başlanğıc xanədə kvarta sıçrayışı unison səslənir, daha sonra xor partiyaları arasında tersiya münasibətində bölünmə verilir və yalnız musiqi cümləsinin sonunda dayaq səsləri üst-üstə düşür. "Aman ovçu" xalq mahnı işləmələri əsas melodiyanın saxlanılması ilə müxtəlif tərtibat xüsusiyyətləri ilə fərqlənir.

Nəzərdən keçirdiyimiz daha bir xalq mahnı işləməsi "Dağıstan" mahnısıdır. Bu mahnısının bir neçə variantı vardır. Ü.Hacıbəylinin və M.Maqomayevin "Azərbaycan türk el nəğmələri" (1927) məcmuəsində bu mahnı "Dağıstan dağ yeridir" adlanır. Mahnının S.Rüstəmov tərəfindən nota alınmış variantı "Güləbatın" adlanır ("Azərbaycan xalq mahnıları", 1967). N.Əliverdibəyov bu mahnını "Dağıstan" adı ilə işləməsini yaratmışdır. R.Mustafayev tərəfindən "Güləbatın" xalq mahnı işləməsini qeyd etməliyik.

Xalq mahnı işləməsi bütün variantlarda şur məqamında qurulmuşdur. Melodiyanın məqam əsası və quruluşu eynidir. Xalq mahnısının xor üçün işləmələrinin əsas xüsusiyyətləri ondan ibarətdir ki, N.Əliverdibəyovun və R.Mustafayevin xalq mahnı işləmələri həcminə görə Ü.Hacıbəylinin işləmə variantından daha genişdir. Hər iki variantda mahnının quruluş xüsusiyyət-

ləri saxlanılır. Lakin Ü.Hacıbəylinin variantından fərqli olaraq, burada yeni bir mövzu – nəqəratın mövzusu öz əksini tapır. N.Əliverdibəyovun "Dağıstan" xor üçün işləməsində bu mövzu instrumental girişdə verilir, daha sonra kupletlər arasında instrumental bölmələrin və kodanın əsasını təşkil edir. Bu xor işləməsində fakturada polifonik inkişaf üsulları üstünlük təşkil edir. R.Mustafayevin "Ay güləbatın" xalq mahnısının xor üçün işləməsi solist, xor və instrumental müşayiət üçün nəzərdə tutulmuşdur, bir neçə kupletdən və nəqəratdan ibarətdir. Nəqəratın melodik quruluşu zirvədən enən sekvensiyalı hərəkətə əsaslanır. "Ay güləbatın" sözü xorla birlikdə oxunur. Bu da əsərin başlığına çıxarılan sözün əhəmiyyətini önə çəkir.

Beləliklə, Azərbaycan bəstəkarlarının xalq mahnılarına müraciəti xor ədəbiyyatını maraqlı xor işləmələri ilə zənginləşdirmişdir. Bu işləmələr xor çoxsəsliyini yaxşı məlum olan musiqi materialı üzərində mənimsəməyə imkan vermişdir. Xalq mahnılarının çox böyük bədii-ifadəli potensialı, onun daxilində mövcud olan gizli çoxsəslilik elementləri xor işləmələrində özünü büruzə verir. Bununla yanaşı, xalq mahnısının geniş dinləyici kütləsi tərəfindən anlaşılan bir şəkildə xorun ifasında təqdim olunması da xor işləmələrinin əsas məqsədlərindən biridir.

Bəstəkarlar xor işləmələrində melodiyanı sadə, lakin mənalı və təsirli ifadə vasitələri ilə təcəssüm etdirərək, onların gözəlliyini üzə çıxarırlar. Xalq mahnılarının xor üçün işləmələrində mahnının kuplet-nəqərat quruluşu, melodik inkişaf xətti saxlanılaraq, maraqlı xor partiturası yaradılır. Melodik, məqam-intonasiya, ritmik xüsusiyyətlər xalq mahnılarının xor üçün işləmələrində aparıcı əhəmiyyət daşıyır.

Xalq mahnı işləmələrində dördsəsli, bəzi hallarda ikisəsli xorun imkanlarından istifadə olunur. Bir sıra işləmələr solist, xor və instrumental çüşayiət üçün, bəzi nümunələr xor və fortepiano üçün, bəzisi isə a kapella xoru üçün nəzərdə tutulur. Bu işləmələrdə melodik hərəkət xətti, melodiya və harmonik fonun uzlaşdırılması, polifonik inkişaf üsullarının müxtəlif xarakterli tətbiqi üzə çıxır.

Dissertasiyanın **II fəsli "Xor əsərlərində xalq musiqisindən istifadə məsələləri" adlanır və iki yarımfəsildən ibarətdir.**

**II fəslin ikinci yarımfəsli 2.1. – "Ü.Hacıbəylinin xor yaradıcılığında xalq musiqisindən istifadə yolları"nın tədqiqi ilə bağlıdır.** Dissertasiyanın bu fəslində biz Azərbaycan bəstəkarlarının xor əsərlərində xalq musiqisindən istifadə üsullarını araşdırırıq. İlk növbədə, Ü.Hacıbəylinin yaradıcılığına müraciət edərək, onun opera və musiqili komediyalarındakı xorlar-

da və xor üçün müstəqil əsərlərində xalq musiqisindən istifadə məsələlərinə nəzər yetiririk.

Ü.Hacıbəylinin yaradıcılığını izləyərkən, onun əsərlərini tədqiq edərkən belə bir qənaətə gəlmək olur ki, bəstəkar tükənməz xalq musiqisi irsindən üç yolla bəhrələnmişdir. Birinci, hər hansı bir musiqi folkloru nümunəsinin melodiyasını eynilə saxlamaq, ikinci, onun ayrı-ayrı musiqi elementlərindən istifadə etmək, üçüncü yol musiqi folklorunun, məqam, intonasiya, melodiya, metro-ritm ünsürləri ilə zənginləşmiş müstəqil əsərlərin, orijinal melodiyaların yaradılmasıdır. Bunlar bəstəkarın yaratdığı xorlarda da özünü göstərir.

Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasında xalq mahnıları əsasında yazılmış iki xora diqqət yetirək. Bunlardan birincisi I şəkildən məktəbli qızların və oğlanların "Nagah olsa" xoru - "Evləri var xana-xana" xalq mahnısına; ikincisi isə IV şəkildən Məcnunun səhradakı səhnəsindən qızların pərdəarxası "Bu gələn yara bənzər" xoru eyniadlı xalq mahnısına əsaslanır. Hər iki xorda xalq mahnılarının melodiyası olduğu kimi saxlansa da, onların işləmə üsulları müxtəlifdir. Burada xorun dramaturji funksiyasından asılı olaraq poetik mətnin dəyişdirilməsi, xalq mahnısının xor üçün tərtibatından irəli gələn xüsusiyyətlər – unison və ikisəslilik, polifonik imitasiya, orkestr müşayiətinin fakturası və s. diqqəti cəlb edir.

I şəkildən məktəbli qızların və oğlanların xorunda soprano və tenorların partiyası "Evləri var xana-xana" xalq mahnısının segah məqamında qurulmuş melodiyasına əsaslanır. "Evləri var xana-xana" xalq mahnısı məzmununa və janr xüsusiyyətlərinə görə xalq məişət mahnılarının lirik janr qrupuna aiddir. Ü.Hacıbəyli xalq mahnısının yalnız birinci periodundan (iki dəfə təkrarlanmaqla) xorun melodiyasında istifadə etmişdir. Xorda "Evləri var xana-xana" mahnısının poetik mətni bəstəkar tərəfindən bütövlükdə dəyişdirilmiş və səhnədəki hadisələrə uyğunlaşdırılmışdır: "Nagah olsa, atanız işdən agah". Ü.Hacıbəyli xalq mahnısının poetik mətninin quruluşuna əsaslanmışdır. Xalq mahnısında misranın əsasını 8 hecalı mətn təşkil edirsə, misralar "a gülüm", "aman, aman" kimi əlavə sözlərin hesabına 11 və ya 12 hecaya kimi artırılır. Xorun melodiyasında xalq mahnısının segah məqam əsası və melodik quruluşu olduğu kimi saxlanılmışdır.

"Leyli və Məcnun" operasında "Bu gələn yara bənzər" xoru eyniadlı xalq mahnısına əsaslanır. Xor öz emosional məzmununa görə lirik, kədərli xarakter daşıyır. Burada xalq mahnısının musiqi və poetik mətni saxlanılmışdır, yalnız poetik mətndə bəzi sözlərin dəyişdirilməsi özünü göstərir.

Xorun mətninə daxil edilən yeni sözlərin operanın libretto müəllifi kimi Ü.Hacıbəyliyə məxsus olduğunu deyə bilərik.

Ü.Hacıbəyli artıq ilk əsərindən xalq mahnılarına yaradıcılıqla yanaşmış, xalq melodiyasından sitat şəklində istifadə edərək, onları instrumental müşayiətli xor üçün işləmiş və mətnlərini əsərin məzmununa uyğunlaşdıraraq yenidən tərtib etmişdir.

Ü.Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyasında xalq mahnı melodiyalarından istifadə olunduğu bir neçə nümunənu qeyd etməliyik. Dördüncü pərdədən "Gedin, gedin qazıya deyin" xorunda "Nə baxırsan yanı-yanı" xalq mahnısının melodiyasından istifadə olunmuşdur. Xor üçsəsli ifadə tərzindədir, həmçinin imitasiyalı, səsaltı polifonik quruluşlu epizodlardan istifadə olunur.

"O olmasın, bu olsun" musiqili komediyasından Qonaqların xorunda "Qədim toy" rəqsinin melodiyanın ümumi quruluşu dəyişməyərək, onun ayrı-ayrı frazaları iştirakçıların partiyaları arasında paylanır, daha sonra isə melodiya xorun ifasında davam etdirilir. İnstrumental rəqs melodiyalarına sözlər qoşularaq xalq mahnısı kimi oxunması halları ifaçılıq təcrübəsində rast gəlinir.

"Arşın mal alan" komediyasının ikinci pərdəsindən Qızların xorunda "Qaladan-qalaya" xalq mahnısının melodiyası işlənilmişdir. Nəqəratın melodiyası xalq mahnılarına əsaslanır. Bu xorda da xalq mahnısının mətninə yaradıcı yanaşma özünü göstərir. "Qaladan-qalaya" mahnısının bir çox variantlarının not yazıları vardır və onların poetik mətni oxşardır: "Qaladan-qalaya nar yemək olmaz, Bu gələn sonaya yar demək olmaz". Xorun mətni isə bilavasitə "Arşın mal alan" musiqili komediyasının məzmununa uyğun Ü.Hacıbəyli tərəfindən yenidən yazılmışdır: "Ah nə gözəl parçadır, gülləri də qönçədir, Toy bəzəyi xonçadır, xonça-xonça". Xorun melodiyasının da xalq mahnısının ibarələrinə əsaslanaraq, yeni mətnə uyğun işlənildiyini ritmik və quruluş baxımından genişlənsirildiyini qeyd etməliyik.

Ü.Hacıbəylinin solist, xor və instrumental müşayiət üçün "Əsgər marşı"nda xalq mahnılarından alınmış melodik elementlərin tətbiqi özünü göstərir. Mahnının sözləri M.S.Ordubadiyə məxsusdur. Mahnının nəqəratında "Addımla əsgər" sözlərinin oxunması ilə bağlı melodik hərəkətin "Aman nənə" xalq mahnısı ilə intonasiya əlaqələri özünü göstərir. "Aman nənə" janrına görə xalq məişət mahnılarına aid edilərək, yumorlu-satirik məzmuna malikdir. Bu mahnının melodiyasından hərbi-mübarizə ruhlu mahnıda istifadə olunması onun xarakterinin tamamilə dəyişərək, marş keyfiyyətləri kəsb etməsinə səbəb olur.

Ü.Hacıbəylinin bir sıra xorlarında dini musiqidən istifadə olunmuşdur. “Koroğlu” operasının sonuncu hissəsində səslənən xalqın xoru buna nümunədir. Nigarın edama aparılması və xalq kütlələrinin xana yalvarmasını əks etdirən xor eyni musiqi ibarələrinin xor partiyalarında imitasiyalı təkrarlanmaları üzərində qurulmuşdur. Buna görə də monoton oxumadan yaranan bədbin, kədərli əhval-ruhiyyə özünü göstərir.

“Koroğlu” operasından “Çənlibel” xorunun metroritmik quruluşu və melodik xüsusiyyətlər baxımından “Cəngi” rəqsi ilə müqayisə aparmaq olar. Bu da təsadüfi deyil, belə ki, operada bu xordan sonra eyni vəznə əsaslanan “Cəngi” rəqsi səslənir.

Beləliklə, Üzeyir Hacıbəylinin xor yaradıcılığında xalq musiqisindən müxtəlif üsullarla istifadə olunduğunu görürük. Nəzərdən keçirdiyimiz nümunələrdə xalq mahnı və rəqslərindən sitat şəklində və eləcə də müxtəlif yaradıcı üsullarla istifadə özünü göstərir.

**Dissertasiyanın II fəslinin ikinci yarımfəsli - 2.2. “Azərbayan bəstəkarlarının xor əsərlərində xalq musiqisinin melodik-intonasiya quruluşundan istifadə” məsələlərinin araşdırılmasına həsr olunmuşdur.**

Azərbaycan bəstəkarları tərəfindən xor musiqisi ayrıca bir sahə kimi inkişaf etdirilmişdir. Xor musiqisi sahəsində: xor üçün yazılmış lirik miniatürlər, vətənpərvərlik mahnıları, marşlar, himnlər, həmçinin, xalq mahnılarının xor üçün işləmələri, kantata, oratoriya kimi çox hissəli vokal-instrumental əsərlər, xor üçün silsilə əsərlər meydana gəlmişdir. Eyni zamanda, xor repertuarında opera xorları da mühüm yer tutur. Bu baxımdan Qara Qarayevin, Cövdət Hacıyevin, Səid Rüstəmovun, Cahangir Cahangirovun, Fikrət Əmirovun, Ağabacı Rzayevanın, Ədilə Hüseynzadənin, Nazim Əliverdibəyovun, Süleyman Ələsgərovun, Ramiz Mustafayevin, Aqşin Əlizadənin, Vasif Adıgözəlovun, Azər Dadaşovun və başqa bəstəkarların yaratdığı əsərlər xor musiqisi sahəsini zənginləşdirmişdir.

Q.Qarayevin “Xoşbəxtlik mahnısı” kantatası Məmməd Rahimin sözlərinə soprano, xor və simfonik orkestr üçün yazılmışdır. Əsər 4 hissədən ibarətdir: Kantatanın ikinci hissəsindən Vətəni tərənnüm edən xorda aşıq havalarının səciyyəvi intonasiyalarından geniş istifadə olunmuşdur. Xüsusilə müşayiətdə aşıq musiqisinin əsas cəhətlərindən sayılan sabit kvarta-kvinta quruluşlu akkord birləşmələri diqqəti cəlb edir. Bu harmonik – metroritmik fon bütün əsər boyu saxlanılır və xorun xarakterini qabarıq üzə çıxarır. Əsərin musiqisinin ümumi ruhu, melodik quruluşu və metro-ritmik şəkli aşıq havalarını xatırladır. Xorda eyni səsin təkrarı, melodiyada qısa forşlaqlardan və kadensiyalarda kvarta intonasiyasından istifadə olunması aşıq

musiqisinin səciyyəvi əlamətləridir. Lakin bunlar sadəcə milli ornament deyil, əsərin obrazlı məzmunundan irəli gələn ifadə vasitələridir.

Cövdət Hacıyevin "Laylay" xorunun artıq adından onun xalq musiqisinin ən geniş yayılmış janrlarından biri olan laylay janrı ilə əlaqəsi özünü göstərir. Xorun musiqisi bu janra xas olan səciyyəvi cəhətlərə əsaslanır. Xorun poetik mətni, melodik quruluşu, instrumental müşayiət fonu bunu təsdiq edir. "Laylay" – C.Hacıyevin S.Rüstəmin sözlərinə yazdığı solo soprano və xor üçün oratoriyasının üçüncü hissəsidir. Bəstəkar burada övladına layla çalan nəvazişli ana obrazı yaratmışdır. Xorun mətni xalq bayatılarına deyil, Süleyman Rüstəmin sözlərinə əsaslanır. Şair laylay mətninə xas olan bədii ifadələrdən istifadə edərək, xalq bayatıları ruhunda şeir yaratmışdır. Poetik mətnin musiqi ilə vəhdətindən laylaya xas olan melodik ritmik xüsusiyyətlər meydana gəlir. Eyni zamanda, laylay melodiyasına reçitativ-deklamasiyalı üslub xasdır. Burada bir cəhəti də qeyd edək ki, laylay xalq musiqi irsində vokal musiqinin bir janrı kimi, ənənəvi olaraq, solo şəklində ifa olunur, yəni bir ananın oxuduğu laylay onun ürək sözlərinin və hisslərinin ifadəsidir. Xor əsərində bəstəkar laylayın bu xüsusiyyətini saxlayaraq, əsas melodiyanı solo sopranoya tapşırmışdır. Xorun funksiyası isə çoxcəhətli və rəngarəngdir. Xorun ifadə tərzində polifonik və harmonik quruluş xüsusiyyətləri özünü göstərir.

Əşrəf Abbasovun "Səhər nəğməsi" xoru xalq musiqisinə əsaslanması baxımından maraqlı cəhətlərə malikdir. "Səhər nəğməsi" xoru Y.Əzimzadənin şeirinə əsaslanır. Xorda lirik xalq mahnılarına xas olan melodik quruluş xüsusiyyətləri özünü büruzə verir. Xor işıqlı, lirik xarakter daşıyır. Təbiət obrazını canlandırır, həyatsevər gənliyin təbiətdən vəcdə gələrək, arzularını bölüşməsini təcəssüm etdirir. Poetik mətnin quruluşunda təkrarlanan misralar vardır, musiqidə də bu, öz əksini tapır və reprizalılıq əmələ gətirir. Formanın maraqlı cəhəti ondan ibarətdir ki, hər kuplet inkişafın yeni mərhələsini təşkil edir. İkinci kuplet həm də xorun kulminasiyası olub, yeni musiqi materialı əsasında, yeni musiqi cümləsi əsasında oxunur. Bu da formada mərhələli inkişaf əmələ gətirməklə, kupletlər arasında bağlılıq əmələ gətirir.

C.Cahangirov - "Məzəli mahnı ilə rəqs" (sözləri Zeynal Cabbarzadənindir) xor üçün yazılmış əsərdir. Burada xalq musiqi yaradıcılığının ənənəvi janrlarından biri olan məzəli mahnıların xarakterik cəhətlərindən istifadə olunmuşdur. Məzəli mahnılar xarakterinə görə rəqslə uzlaşır, bu baxımdan bəstəkarın bu iki janrı yanaşı verməsi diqqətəlayiqdir. Mahnının xarakteri oynaq, şən-şuxdur. Dörd səsli xorun partiyaları bəzən qoşalaşmış şəkildə, bəzən unison, bəzən də polifonik səsaltı ibarələr və ya burdon səs

daxil edilməklə verilir. Bu cür dəyişkən ifadə tərzi musiqiyə fəal hərəkətlilik, oynaqlıq aşılayır. Müşayiət partiyasındakı fiqurasiyalı gedişlər zərb alətlərinin ritmik müşayiətini xatırladır.

Nazim Əliverdibəyovun xor əsərləri sırasında a capella xor üçün yazdığı "Bayatı-Şiraz" kompozisiyası xüsusi yer tutur. 1972-ci ildə yazılmış bu əsər bəstəkarın və ümumiyyətlə, Azərbaycan xor musiqi sənətinin ən qiymətli əsərlərindən biri hesab edilir. "Bayatı-Şiraz" muğamı böyük tarixi inkişaf yolu keçmiş, ayrı-ayrı vaxtlarda muğam ifaçılarının yaradıcılığında müxtəlif tərkiblərdə ifa olunmuşdur. N.Əliverdibəyovun kompozisiyasında "Bayatı-Şiraz" muğamının əsas şöbələrindən, təsnif və rənglərdən istifadə olunmuşdur. Lakin bəstəkarın öz təfəkkürünə uyğun olaraq qurduğu kompozisiya muğam dəstgahından fərqlənir və özünəməxsus xüsusiyyətlərə malikdir. Ümumiyyətlə, muğamda səslənən hər söz, hər fikir xüsusi əhəmiyyət kəsb edir. Nazim Əliveribəyov şöbə hissəsində mətndən imtina etməklə sanki dinləycini sözlərin deyil, səs xəttinin ardınca aparır. N.Əliverdibəyov "Bayatı-Şiraz" muğamının quruluşuna, tematik özəyinə, melodik inkişaf xüsusiyyətlərinə əsaslanaraq, özünəməxsus kompozisiya yaratmışdır.

Aqşin Əlizadənin xor əsərləri diqqətəlayiqdir. Xüsusilə bəstəkarın "Bayatılar" xor silsiləsini (qarışıq tərkibli a capella xoru üçün 10 miniatürdən ibarət), "Azərilər" – qarışıq xor və simfonik orkestr üçün kantatasını, "Təntənə" kantatasını, a capella xoru üçün "Qədim laylay" əsərini və "Ana torpaq" odasını göstərmək olar.

A.Əlizadənin "Bayatılar" xor silsiləsində (1968) bəstəkar xalq yaradıcılığı irsindən seçdiyi olan bayatılar əsasında 10 nömrədən ibarət silsilə yaratmışdır. Silsiləni təşkil edən hər bir nömrə xalq həyatının ayrı-ayrı lövhələrinin – lirik, peyzaj, məişət, janr səciyyəli lövhələrinin özünəməxsus təsviridir. Bəstəkar instrumental müşayiətdən imtina edərək, öz yaradıcılıq məqsədlərini yalnız xor səslərinin tembrlərindən istifadə etməklə məhdudlaşdırmış və səslərin bütün rəngarəngliyindən çox bacarıqla istifadə etməyə nail olmuşdur. Məsələn, xorun səsləri sazın, balabanın, zərbli alətlərin səslənməsinə yaxınlaşır. Bəstəkar xalq melodiyalarından sitat gətirməyərək, qədim havalar ruhunda öz melodiyalarını yaratmışdır.

"Azərilər" kantatası dörd hissədən ibarətdir. Hissələr obrazlı və emosional məzmununa görə fərqlənsələr də, onlar əlaqələndirilərək, bir-birini tamamlayır və vəhdət təşkil edir. Kantatanın vətənpərvərlik ideyası poetik surətdə həyatın və təbiət qüvvələrinin uzlaşdırılması vasitəsilə üzə çıxır və bu da kantatanın hissələrinin adında öz əksini tapır: "Dənizin səsi", "Dağın səsi", "Baharın səsi", "Odlar torpağının səsi". Kantatanın hissələrinin əsası-

nı xalq mahnı melodiyaları təşkil edir. Məsələn, birinci hissədə bəstəkar "Ay dili, dili" lirik xalq mahnısının melodiyasının xarakterini dəyişərək, epik-qəhrəmani havalara yaxınlaşdırmışdır. İkinci hissənin əsasını iki xalq melodiyası təşkil edir, kişi və qadın xorunda (a capella) səslənən bu melodiyalar intonasiya əsasına görə xalq ağı və oxşamalarını xatırladır. Kantatada xalq musiqisinin müxtəlif təbəqələrinə əsaslanan A.Əlizadə materialın inkişafı üçün orijinal və təbii formalar tapmışdır.

Vasif Adıgözəlovun xor yaradıcılığında "Odlar yurdu", Qarabağ şikəstəsi" oratoriyaları xüsusi yer tutur və bu sahədə bəstəkarın fəal axtarışlarının nəticəsidir. Bu əsərlərdə muğam-improvizasiya üslubu, aşıq yaradıcılığı və xalq mahnı və rəqs xüsusiyyətləri bir-birilə uzlaşdırılaraq, vəhdət yaradır.

"Qarabağ şikəstəsi" - xalq musiqisində geniş yayılmış zərbi muğamın adına uyğundur. Bəstəkarın milli musiqi ənənələrini dərindən duyması əsərin orkestr dilində, melodik inkişaf xüsusiyyətlərində özünü göstərərək, zərbi muğamın bəstəkar tərəfindən yeni təfsirinə, orijinal üslublu əsərin yaranmasına yol açmışdır. V.Adıgözəlovun şair Teymur Elçinin sözlərinə qiraətçi, solistlər (xanəndələr, vokalçı və tarzən), xor və simfonik orkestr üçün yazılmış "Qarabağ şikəstəsi" oratoriyası yeddi hissədən ibarətdir, kompozisiyanın əsasını simfonik, xor, ariya və muğam epizodları təşkil edir. Şikəstələrin ifadə tərzindən V.Adıgözəlov vokal-instrumental partiturada dolğun şəkildə istifadə etmişdir. Orkestrdə zərbi muğamın əsas instrumental mövzusu səsləndirilməklə, o, həmçinin ostinat ritmik fon əhəmiyyətini daşıyır. Orkestrdə mövzunun ritmik əsası saxlanılaraq, vokal partiyanın improvizasiyası zamanı instrumental fon təşkil edir. Bəstəkar yaradıcılığının məhsulu olan oratoriya janrına zərbi muğam janrının daxil edilməsi poetik və musiqi məzmununda ənənəvi cəhətlərin saxlanılması ilə yanaşı, ifaçılıq xüsusiyyətlərinin qovuşdurulmasına yol açmışdır. Solist qismində məhz xanəndə səsindən istifadə olunması bəstəkarın ənənələrə bir tərəfdən qoruyucu, digər tərəfdən, yaradıcı münasibətini üzə çıxarır. Bütün bunlar bəstəkar yaradıcılığının milli köklərinin müqayisəli təhlil yolu ilə üzə çıxarılmasına yol açır.

V.Adıgözəlovun "Odlar yurdu" oratoriyası Azərbaycan xalqının tarixinin ayrı-ayrı mərhələlərini sanki yaddaşlarda yenidən oyadır. Qiraətçi, solistlər, xor və simfonik orkestr üçün yazılmış "Odlar yurdu" oratoriyası 10 hissədən ibarətdir. Azərbaycan xalqının qəhrəmanlığını, onun yenilməz mərdliyini və dönməz iradəsini vəsf edən oratoriyanın musiqi dilinin xalq musiqi mənbələrilə dərin əlaqələri özünü göstərir. Oratoriyanın hissələrində

"Azərbaycan", "Zəhmət haqqında mahnı", "Laylay", "Ana haqqında söz" və s. obrazlı məzmunun əhatəli açılması üçün bəstəkarın məhz xalq musiqisinin ifadə vasitələrinə əsaslanması özünü qabarıq büruzə verir. Oratoriyanın musiqisi Azərbaycan xalq musiqisinin qədim qatlarına əsaslanır: burada biz xalq ağılarının ifadəli və səciyyəvi intonasiyalarını, lirik xalq mahnılarından gələn duyğuları, aşıq havalarının əks-sədasını eşidirik.

V.Adıgözəlovun yaradıcılığında "Novruzum" – solist, xor və simfonik orkestr üçün kantatası (Rəfiq Zəka Xəndanın sözlərinə) xüsusi yer tutur. İlk dəfə olaraq, kantata-oratoriya janrında ən qədim mərasimlərdən biri olan Novruz bayramına xas adət-ənənələr musiqi dili ilə öz təcəssümünü tapmışdır. V.Adıgözəlovun "Novruzum" kantatası 4 hissədən ibarətdir: 1. "Azərbaycan", 2. "Səməni", 3. "Kosa-kosa", 4. "Novruzum". Bu əsərdə bəstəkar xalq mərasiminin bütün mərhələlərini ardıcıl olaraq təcəssüm etdirmiş, xalq musiqisinin bütün incəliklərindən, folklorun ayrı-ayrı janrlarından geniş istifadə etmişdir. Bəstəkar qarşısına qoyduğu məqsəddən irəli gələrək, xalq mahnı və rəqslərindən bəhrələnərək, onların intonasiya qaynaqları üzərində orijinal musiqisini yaratmışdır. "Novruzum" kantatası bəstəkarın xalq mənbələrinə bəstəkarın sərbəst yaradıcı münasibətinin təzahürüdür.

Ramiz Mirişlinin vokal-instrumental janrlarda əsərləri - "Azərbaycanım", "Sən ucadan uca diyar", "Doğma diyar" "Odlar diyarı" kantataları, "Məşəl kimi yanan ürək" odası, xor və simfonik orkestr üçün dörd süitası diqqətəlayiq əsərlərdir. Bu əsərlər Vətənin möhtəşəm obrazının tərənnümünə həsr olunmuşdur və bəstəkarın vətən sevgisi, vətəndaşlıq mövqeyinin təcəssüm etdirir.

Beləliklə, bəstəkarlar tərəfindən yaradılan xorlarda xalq musiqisindən istifadənin müxtəlif cəhətləri üzə çıxır. Xalq musiqisindən istifadə bəstəkarların yaradıcılıq dəst-xəttində mahnıvari üslubun formalaşmasına təkan vermişdir. Bu da özünü milli musiqiyə xas olan məqam-intonasiya əsaslarında, melodik inkişaf qanunauyğunluqlarında, metro-ritmik və quruluş xüsusiyyətlərində göstərir.

**NƏTİCƏ** bölməsində tədqiqata yekun vurulur və əldə olunan əsas elmi müddəalar qeyd olunur.

Xalq musiqisindən istifadə olunması Azərbaycan professional bəstəkarlıq məktəbinin məğzini təşkil edir. Bəstəkarlar öz qarşısında çox az hallarda xalq musiqisindən məqsədyönlü müraciət məqsədini qoyur. Professional musiqi yaradıcılığında folklor təcəssümünün üsulları tükənməzdir. Bəstəkarlar tematizmin formalaşmasında kökləri ilə folklora bağlı ifadə vasitələrinə əsaslanır, dəfələrlə inadla təkrar olunan qısa formul şəkilli melodik

frazadan, ritmin inkanlarından istifadə edir. Folklorla paralellik həm obraz planında, həm də konkret üsullarda təzahür edir. Bəstəkar və folklor problemi hər bir konkret halda öz həllini tələb edir.

Dissertasiyada bəstəkar əsərlərinin janr xüsusiyyətləri, musiqi üslubu, xalq musiqisinə yaradıcı münasibəti araşdırılmışdır, Azərbaycan xalq musiqisindən istifadə yolları, bəstəkarların musiqi dilinə təsiri, musiqi üslubunun formalaşmasında rolu, meydana gələn yeni cəhətlər üzə çıxarılmışdır.

Xalq mahnılarının xor və müşayiət (fortepiano və orkestr) üçün və ya a kapella xoru üçün işlənilməsi bəstəkar yaradıcılığında çox rast gəlinir. Həm müstəqil şəkildə, həm də irihəcmli əsərlər daxilində - xüsusilə opera və musiqili komediyalarda, kantata-oratoriya janrlarında xalq musiqisindən istifadə müəyyən cəhətlərə malikdir.

Xalq mahnılarının opera və musiqili komediyalardakı xorlarda istifadə olunmasında bir neçə cəhət üzə çıxır. Birincisi, xalq mahnısının poetik mətninin işlənilməsi ilə bağlıdır: istifadə olunan xalq mahnısının poetik mətni əsərin məzmunundan asılı olaraq dəyişdirilə bilər. Bu halda xalq melodiyası yeni mətnin ifadəsi üçün bir vasitəyə çevrilir. İkinci halda, xalq mahnısı ənənəvi mətnlə əsərə daxil edilir, xalq mahnısının melodiyası bütövlükdə istifadə olunur, poetik mətnində cüzi dəyişiklik – variantlıq özünü göstərir. Bu halda xalq mahnısının məzmunu ilə bilavasitə süjet xəttinə daxil olunması diqqəti cəlb edir.

Azərbaycan bəstəkarların xor əsərlərində xalq musiqisindən istifadə yollarının təhlili nəticəsində bir sıra önəmli cəhətlər özünü göstərir. Azərbaycan bəstəkarlarının orijinal xor əsərlərində xalq musiqisinin səciyyəvi melodik, məqam-intonasiya, metroritmik xüsusiyyətləri öz əksini tapmışdır. Bir sıra xorlarda xalq mahnı janrlarının – laylay, məzəli mahnı və s. əsas xüsusiyyətlərinin təzahürləri öz əksini tapır. Xalq musiqi nümunələrinin melodik quruluşunda məqam əsası mühüm rol oynayır. Bəstəkarlar xalq musiqisindən istifadə edərkən, bu qanunauyğunluqlara əsaslanaraq, melodik və harmonik ahəngdarlığa, eləcə də forma quruluşunun mütənasibliyinə nail olurlar.

Beləliklə, xalq musiqisinin bəstəkarların xor yaradıcılığında tətbiqi yollarının araşdırılması Azərbaycan bəstəkarlarının musiqi üslubunun tədqiqi üçün zəngin material verir. Azərbaycan xalq musiqisinə əsaslanan bəstəkarlar bu musiqinin qanunauyğunluqlarını mənimsəyərək, öz yaradıcılıq süzgəcindən keçirərək, bu sahədə özünəməxsus üslub xüsusiyyətlərini yaratmışlar.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Azərbaycan bəstəkarlarının xor əsərlərində xalq musiqisindən istifadə məsələləri. / Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XV Beynəlxalq elmi-praktiki konfransın materialları. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. B.: 2016. S. 147-149.

2. Обработки народных песен для хора азербайджанских композиторов в начале XX века. / Научные исследования в сфере гуманитарных наук: открытия XXI века. Материалы III Международной научно-практической конференции. 4-5 февраль 2016 года. Пятигорск, 2016. с.104-106.

3. Azərbaycan xor musiqisində xalq mahnısından istifadə yolları. // “Harmoniya” elektron jurnalı, 2015. http://harmony.musigi-dunya.az

4. Xalq mahnısı - Azərbaycan bəstəkarlarının xor musiqisində. // “Musiqi dünyası” jurnalı, № 3-4, 2015. http://musigi-dunya.az

5. Azərbaycan milli musiqisinin inkişaf yolu. // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. Naxçıvan, “Qeyrət”, 2013, № 2 (54), s. 159-161.

6. Azərbaycanda xor-dirijorluq sənəti. // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri. Naxçıvan, 2013, cild. 9, № 2, s.153-155.

7. Национальные истоки хорового творчества азербайджанских композиторов // «Поиск» Международный научный журнал-приложение республики Казахстан, № 2 (3) 2016, с.44-46.

8. Azərbayan bəstəkarlarının xor əsərlərində xalq musiqisinin melodik-intonasiya quruluşunun təcəssümü // “Musiqi dünyası” jurnalı, 2016, № 2/67, s.129-131.

**Севиндж Зохраб гызы Джафарова**

**«Проблема использования народной музыки в хоровых произведениях азербайджанских композиторов»**

## РЕЗЮМЕ

Диссертация состоит из введения, 2-х глав, 4-х разделов, заключения и библиографии. Во введении подчеркивается актуальность, степень разработанности темы, цели и задачи, научное и практическое значение исследования.

Диссертация посвящена изучению путей претворения народной песни, как одного из жанров музыки устной традиции в композиторском творчестве. В этом аспекте рассматривается хоровое творчество азербайджанских композиторов. В результате влияния народной музыки на композиторское творчество хоровая музыка обогатилась произведениями в различных жанрах, разнообразной тематикой и выразительными средствами. Автором рассматривается проблема взаимовлияния народной музыки на хоровое творчество азербайджанских композиторов. Творческое обращение композиторов к народной музыке связано со сложной системой средств музыкальной выразительности, жанровыми особенностями и влияет почти на все параметры композиторского письма, таких как композиция, мелодика, интонация, форма, ритмика, гармоническое - полифоническое письмо и т.д.

I глава – «Роль и значение народного музыкального творчества в развитии хоровой музыки в Азербайджане» - состоит из 2-х разделов: 1.1. – «Особенности азербайджанской народной музыки и вопросы использования в композиторском творчестве»; 1.2. – «Хоровые обработки народной музыки в композиторском творчестве».

II глава – «Пути использования народной музыки в хоровых произведениях» - состоит из 2-х разделов: 2.1. – « Пути использования народной музыки в хоровом творчестве Узеира Гаджибекова»; 2.2. – «Использование мелодико-интонационного строения народной музыки в хоровых произведениях азербайджанских композиторов».

В заключении даются выводы и обобщения проведенного музыкального анализа.

**Sevinj Zohrab Jafarova**

**“The problem of using folk music in the choral works of Azerbaijani composers”**

**SUMMARY**

Thesis consists of introduction, two chapters, four sections, conclusion and bibliography. Actuality, degree of development of topic, purpose and tasks, scientific and practical importance of research are straightened in introduction.

The thesis is devoted to studying ways to implementation a national song, as one of the music genres of oral tradition in the works of a composer. In this aspect is considered choral work of Azerbaijani composers. As a result, the influence of folk music on the composer's work has been enriched by the works of choral music in various genres, various themes and expressive means. İn this article considers the problem interference of folk music and the choral work of Azerbaijani composers. The creative appeal to the folk music of composers associated with a complex system of means of musical expression, genre features and affects almost all parameters composing letters, such as composition, melody, tone, shape, rhythm, harmonic - polyphonic writing, etc.

**I chapters - "The role and importance of folk musical creativity in the development of choral music in Azerbaijan" - consists of 2 sections: 1.1. - "Features of Azerbaijani folk music and issues of use in composer's creativity"; 1.2. - "Choral processing of folk music in composer's creativity".**

**Chapter II - "Ways of using folk music in choral works" - consists of 2 sections: 2.1. - "Ways of using folk music in the choral work of Uzeyir Hajibeyov"; 2.2. - "Using the melodic-intonational structure of folk music in the choral works of Azerbaijani composers".**

In **conclusion** is given inference and generalisations of musical analysis.

Çapa imzalanıb: 26.05.2017.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44

e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**СЕВИНДЖ ЗОХРАБ гызы ДЖАФАРОВА**

# ПРОБЛЕМА ИСПОЛЬЗОВАНИЯ НАРОДНОЙ МУЗЫКИ В ХОРОВЫХ ПРОИЗВЕДЕНИЯХ АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ

**6213.01 – Музыкальное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по искусствоведению**

**Баку - 2017**